Tərəqqi və inkişaf dövrünün yeni istiqamətləri

"İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi. 2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev fevral ayının 14-də Milli Məclisdə andiçmə mərasimində söyləyib.

(davamı 3-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Dövlət başçısı andiçmə mərasimində geniş və proqram xarakterli nitqi ilə ötən dövrə yekun vurdu, dövlətimizin qarşısında duran hədəfləri, prioritetləri açıqladı, ölkəmiz üçün yeni dövrün başlandığını elan etdi. Vurğuladı ki, bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq və bu dövrün böyük nailiyyətləri olacaq. Yeni dövrdə iqtisadi islahatların daha da dərinləşməsi, investisiya mühitinin daha da yaxşılaşdırılması, monopoliyaya qarşı mübarizə və eləcə də sosial təminat tədbirlərinin daha da gücləndirilməsi kimi hədəflər var. İndiyədək qarşıya qoyulan bütün vəzifələrin

Tərəqqi və inkişaf dövrünün yeni istiqamətləri

icra edildiyini xatırladan dövlət başçısı bildirib ki, Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt ərazi bütövlüyümüzü bərpa edə bilməzdik.

Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılıb və bu tarixi uğurun əldə edilməsində ümummilli lider Heydər Əliyevin fədakar xidmətləri danılmazdır. Ulu öndər deyirdi ki, heç bir qüvvə bundan sonra Azərbaycanın müstəqilliyini əlindən ala, onun dövlətçiliyini məhv edə bilməz. Ümummilli liderin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Ərazi bütövlüyünü bərpa etməklə Azərbaycan həm də dünyada söz sahibinə çevrilib, ölkəmiz tərəqqi və inkişaf yolu ilə irəliləyir. Bu müddət ərzində Azərbaycan dövlətinin dünya birliyindəki mövqeyi möhkəmlənmiş, iqtisadiyyatımız hər il artan templə yük-

səlmişdir. Ölkəmiz ildən-ilə güclənir, sürətlə inkişaf edir. Aparılan müstəqil iqtisadi siyasət sayəsində Azərbaycanın makroiqtisadi inkişafında dayanıqlıq təmin edilib. İnkişafın və çoxsaylı nailiyyətlərin nəticəsi olaraq iqtisadiyyatda əldə edilmiş sıçrayış Azərbaycanın keyfiyyətcə yeni, modernləşmə mərhələsinə qədəm qoymasına səbəb olub.

Çağdaş Azərbaycanın davamlı inkişafını təmin edən önəmli amil Prezident İlham Əliyevin milli maraqlara söykənən və ölkədə davamlı inkişafı təmin edən regionların sosial-iqtisadi inkişaf konsepsiyasıdır. Dövlət başçısının rəhbərliyi ilə 2003-cü ildən başlayaraq həyata keçirilən uğurlu iqtisadi inkişaf konsepsiyası, yeni sosial-iqtisadi siyasət strategiyası ölkəmizin bütün bölgələrini əhatə edib. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası nəticəsində rayon və şəhərlərimizdə davamlı tərəqqiyə nail olunub, genişmiqyaslı yenidənqurma və abadlıq-quruculuq həyata keçirilib. Əhalini narahat edən problemlərin həlli və infrastruktur layihələrinin yerinə yetirilməsi sahəsində mühüm işlər görülüb, sosialyönümlü obyektlər tikilərək istifadəyə verilib. Müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin, iş yerlərinin yaradılması, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərilib, məşğulluq səviyyəsi artıb.

Regionlarda aqrar sahəyə dövlət tərəfindən göstərilən dəstək tədbirləri gücləndirilib, rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasına xüsusi əhəmiyyət verilib. Ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasının bir istiqaməti kimi sahibkarlığın inkişafında uğurlar qazanılıb. Güzəştli kreditlər hesabına investisiya layihələri maliyyələşdirilib və kiçik sahibkarlığın daha da inkişafı üçün müvafiq tədbirlər görülüb. Ötən illərdə bölgələrdə pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə Dövlət Proqramı qəbul edilib.

Milli iqtisadiyyat və onun əsas istiqamətləri üzrə strateji "yol xəritələri", Dövlət proqramları və müxtəlif konsepsiyalar əsasında çoxsaylı layihələrin icrası uğurla həyata keçirilib. Ölkə əhalisinin maddi durumunun, sosial rifah halının yaxşılaşdırılması istiqamətində və ictimai həyatımızın bütün önəmli sferalarında demokratik-hüquqi dəyərlərin bərqərar olması yönündə inkişafın intensivliyi tam təmin olunub.

Azərbaycan Prezidenti İlham Əliyev müqayisə edərək bildirib ki, 2003-cü ildə Ümumi Daxili Məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard ABŞ dollarıdır. Bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır. Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə minimum əməkhaqqı 9 manat idi. İndi 345 manatdır. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Pensiyanın orta məbləği 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Dinamikanın olması sabaha daha böyük inamla addımlamağa əsas verir. Bu fakt inkaredilməzdir ki, cənab İlham Əliyev 2003-cü ildən bu hədəfi qarşıya qoyub: iqtisadi tərəqqi yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır.

Ən əsası Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan, son 200 illik tariximizdə bənzəri olmayan böyük Qələbə sayəsində torpaqlarımız işğaldan azad edilib, ərazi bütövlüyümüz isə bərpa olunub. Bu Qələbə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası, eyni zamanda milli mənəviyyatın yenilənməsi, dövlətçiliyin gücləndirilməsidir, yeni perspektivlərin yaradılmasıdır. Vətən müharibəsi Azərbaycan xalqının ən ağrılı yarası olan münaqişəni geridə qoydu, Prezident İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi hər bir azərbaycanlıya qələbə sevincini bəxş etdi. Uzun müddət düşmən tapdağı altında qalan torpaqlarımız nəhayət ki, öz əsl sahiblərinə qaytarıldı. Ölkə Prezidenti vurğulayıb ki, növbəti önəmli mərhələ Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Burada görülən işlər azad edilən torpaqlara ayaq basan hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra işlərin belə sürətlə aparılması, yəqin ki, tarixdə görünməmiş hadisədir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Siyasi, iqtisadi imkanların genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirdi. Hazırda regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır.

Bütün bunlara isə günü-gündən güclənən iqtisadiyyatımız sayəsində nail oluruq. Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Xarici siyasət daxili siyasətin davamıdır. Bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq. Prezident İlham Əliyev ölkəmizin xarici siyasəti istiqamətində də yol xəritəsini göstərdi. Dövlət başçımızın söylədikləri bizim hər birimiz, hər bir Azərbaycan vətəndaşı üçün olduqca qürurvericidir. Çünki cənab Prezidentin söylədikləri ölkəmizin öz təsir dairəsini regiondan kənarda da genişləndirmək üçün hər cür imkanlara malik olmasını, Azərbaycan dövlətçiliyinin artan potensialını bir daha təsdiq edir.

Bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Bu gün azad edilmiş ərazilərdə aparılan nəhəng quruculuq və bərpa işləri, uğurla həyata keçirilən Böyük Qayıdış proqramı dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qəlbində böyük qürur və iftixar hissi doğurur. Azərbaycan Respublikası artıq ərazi bütövlüyünü və suverenliyini tam və qəti şəkildə təmin etmiş bir dövlətdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiq edilib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Ölkə başçısı bir sıra önəmli, vacib vəzifələri də sadalayıb. Deyib ki, Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bunun paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, yollar, 130-dan çox tunel və körpü inşa edilir. Yəni bu, sadəcə olaraq işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq.

Kosmik dövlətlər sırasına daxil olan, dünyanın ən mötəbər beynəlxalq forumlarına ev sahibliyi edən, qlobal kataklizmlərlə çalxalanan regionda multikulturalizmin qalasına çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən müstəqil Azərbaycan bu gün hamımızın qürur mənbəyidir. Azərbaycanın inkişafının hazırkı mərhələsinin özəlliyi ondadır ki, son illər xüsusilə intensivləşən və bütün ölkə boyu uğurla həyata keçirilən infrastruktur layihələri, yaradılan yeni sənaye, kənd təsərrüfatı və xidmət müəssisələri ən müasir texnologiyalara əsaslanır. Çox önəmlidir ki, bu innovativ texnologiyaların işlənilməsi və tətbiqi yalnız istehsal və xidmət sahələrini deyil, eyni zamanda olduqca böyük əhəmiyyət daşıyan planlaşdırma və idarəetmə proseslərini də əhatə edir. Bütün bunların əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası, bu istiqamətdə qəbul edilən və həyata keçirilən qərarlar durur.

Mustafa KAMAL,
"Respublika".